Ankarada keçirilən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdı. Türkiyə Respublikası ilə Azərbaycan arasında 6 sənəd imzalandı. İki qardaş ölkə arasındakı münasibət bir daha dünyaya bəyan olundu.

Günün müzakirə mövzusu olan bu məsələ ilə bağlı söylənilən fikirlərin əksəriyyəti belədir ki, Azərbaycan Prezidenti İlham Əliyevin yüksək siyasi iradə nümayiş etdirərək təşəbbüs qaldırması və Türkiyəyə səfər etməsi, çox yüksək səviyyədə görüş keçirməsi ölkəmizin sülhün, demokratiyanın, tərəqqinin və bəşəri dəyərlərin tərəfində olduğunu da sərgilədi. Eyni zamanda dünyaya bir daha bəlli oldu ki, iki qardaş ölkə arasındakı əlaqələri heç bir qara qüvvə poza bilməz. Prezident İlham Əliyevin müdriklik jestini yüksək qiymətləndirən siyasətçilər deyirlər ki, dövlət başçısının Türkiyəyə növbədənkənar və rəsmi səfər etməsi, əslində, sarsılmaz birliyimizə qısqanc nəzərlərlə baxan bəzi dünya güclərinə verilən bir mesaj idi. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin belə bir məqamında Ankaraya səfəri təqdirəlayiq və müdrik olması ilə yanaşı, həm də qətiyyət xarizmasının göstəricisidir.



# Azərbaycan-Türkiyə birliyini sarsıtmaq mümkün deyil

## *Prezident İlham Əliyevin müdrik addımı dünya tarixinə mərdlik, qardaşlıq və humanizm nümunəsi kimi düşdü*

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini **Aydın Mirzəzadə** deyir ki, Türkiyənin paytaxtı Ankarada son zamanlar baş verən terror hadisələrinin məhz ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri ərəfəsində baş verməsi heç də təsadüfi deyil. Deputatın fikrincə, bu bir daha göstərir ki, hədəfdə tək Türkiyə yox, eyni zamanda, Azərbaycan-Türkiyə dostluğudur: "Görünən odur ki, müəyyən dairələr iki ölkənin dostluğundan çox narahatdırlar. Bununla belə, Prezident İlham Əliyevin bu görüşün təxirə salınmaması üçün özünün Türkiyəyə səfər etməsini təklif etməsi çox müsbət qarşılandı, qardaş ölkənin aparıcı mətbuat orqanlarında geniş işıqlandırıldı. Bütün dünya Türkiyənin dərdinin Azərbaycanın dərdi, onların uğurunun da uğurumuz olduğunu bilməlidir. Heç kim unutmamalıdır ki, Azərbaycan hər zaman Türkiyənin yanında olacaq".

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini **Musa Quliyev**in də fikrincə, dövlət başçısının Türkiyəyə səfəri dünya tarixinə mərdlik, qardaşlıq və humanizm nümunəsi kimi düşdü. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri bütün dünyaya sübut etdi ki, iki ölkə arasında münasibətlər strateji münasibətlərdən də yüksəkdir: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da ötən gün etiraf etdi ki, ümummilli lider Heydər Əliyevin uzaqgörən və müdrikcəsinə söylədiyi "bir millət, iki dövlət" anlayışı həqiqi mənada öz təsdiqini tapdı".

Deputat dedi ki, Türkiyə hazırda terrorla üzləşmiş vəziyyətdədir. Qısa müddət ərzində Ankarada ikinci dəfə terror hadisəsi törədilib. Ölkəmizdə keçirilməsi nəzərdə tutulan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası təxirə salındı. Belədə Azərbaycan Prezidenti qardaşlıq jesti göstərərək iclasın qardaş ölkədə keçirilməsini istədi. Türkiyənin çətin günündə Azərbaycan Prezidentinin qardaş ölkəyə nümayəndə heyəti ilə getməsi, orada baş tutan geniş tədbirdə iştirakı, eləcə də iki ölkə arasında qardaşlığın, dostluğun əbədi olacağını ifadə etməsi, Azərbaycanla Türkiyə arasında münasibətlərin hansı səviyyədə olduğunu bütün dünyaya bəyan etdi.

Musa Quliyev hesab edir ki, bundan əlavə, dövlət başçısı bu addımı ilə Azərbaycanın terrora, zorakılığa qarşı olduğunu bütün dünyaya nümayiş etdirdi və ölkəmizin bütün münasibətlərin beynəlxalq hüquq çərçivəsində aydınlaşdırılması, həll olunmasının tərəfdarı olduğunu bildirdi: "Bu səfər istər Türkiyə, istər Azərbaycan, istərsə də dünyanın tərəqqipərvər ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi. Bu səfər dünya siyasəti tarixinə yüksək mərdlik, cəsarət, qardaşlıq və humanizm nümunəsi kimi düşdü".

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini **Bəxtiyar Əliyev** də hesab edir ki, Azərbaycan-Türkiyə birliyini sarsıtmaq mümkün deyil. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfər etməsi iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin nə qədər yüksək olduğunu bir daha göstərir.

Bəxtiyar Əliyev bildirib ki, Azərbaycan ilə Türkiyə həm ağır, həm də xoş gündə bir-birinin yanındadır: "Qardaş ölkədə baş verən terror aktları hər kəsə ağır təsir göstərdi. Belə bir vəziyyətdə Azərbaycan Prezidenti İlham Əliyev yüksək siyasi iradə nümayiş etdirərək təşəbbüs qaldırdı və Türkiyəyə səfər etdi, çox yüksək səviyyədə görüş keçirdi və bütün dünyaya bəyan etdi ki, Azərbaycan hər yerdə sülhün, demokratiyanın, tərəqqinin və bəşəri dəyərlərin tərəfindədir".

Deputat onu da vurğuladı ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, Türkiyə ilə Azərbaycan "iki dövlət, bir millət"dir: "Ağır gündə də, yaxşı gündə də Azərbaycan həmişə Türkiyə ilə bir yerdə olacaq. Azərbaycan Prezidenti həmişə bildirib ki, Azərbaycan Türkiyə ilə hər zaman bir yerdədir, Türkiyə olmayan yerdə də Azərbaycan var və Türkiyənin mövqelərini müdafiə edəcək və bunu beynəlxalq təşkilatlarda da dəfələrlə sübut edib. Türkdilli dövlətlərin bu birliyi dünyada gedən ağır, böhranlı proseslərdə, münaqişələrdə dünyaya sülh gətirən bir güc mərkəzi kimi meydana çıxacaq. Əlbəttə ki, bu sülhü, tərəqqini istəməyənlər buna mane olmağa çalışırlar. Amma bu mümkünsüzdür, çünki artıq proses başlayıb, bu proses geri dönən deyil. Artıq birlik yaranıb və bu birlik dünyada sülhün, insanların gələcək xoşbəxt həyatı üçün mədəni müxtəlifliyi təmin etməklə demokratik prinsiplərin bərqərar olmasına xidmət edir".

Milli Məclisin deputatı **Musa Qasımlı** isə dedi ki, Parisdə terror aktı törədilərkən bəzi ölkələrin liderləri və nümayəndələri Fransaya səfər etmiş və birlikdə yürüyərək terroru ittiham etmişdilər. Türkiyəyə səfəri ilə isə Prezident İlham Əliyev həmin ölkələrə Ankarada da olmağın vacibliyi mesajını verdi.

Deputatın fikrincə, Ankarada törədilən qanlı terror hadisəsindən dərhal sonra Prezident İlham Əliyevin qardaş Türkiyə Respublikasına səfər etməsinin dərin mənası var: "Hər şeydən əvvəl Prezident İlham Əliyev bir daha göstərdi ki, dövlətimiz, millətimiz ağır, kədərli günlərində qardaş türk millətinin və Türkiyənin yanındadır, onların acısını bölüşür, kədərlərinə şərik çıxır. Bu səfər digər dövlətlərə də bir mesaj oldu. Prezident İlham Əliyev terroru pislədi, yaxşı və pis terrorçunun olmadığını dedi.

Lazım gələndə Türkiyə olmayan yerdə Azərbaycan daim Türkiyənin haqq işini dəstəkləyib, ona qarşı edilən əsassız hücumlara layiqincə cavab verib. Bir neçə il əvvəl Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində keçirilən toplantı zamanı Ermənistan prezidenti Serj Sarkisyan Türkiyə əleyhinə ifadələr işlədərkən İlham Əliyev layiqincə onun cavabını verib. Bu, Türkiyə məsələsində Azərbaycanın qəti mövqeyinin digər ölkələrə çatdırılması idi. Yəni Azərbaycan olan yerdə Türkiyənin və türk millətinin əleyhinə danışıla bilməz.

Prezident İlham Əliyev dünyada çox təhlükəli proseslərin getdiyini birmənalı olaraq bildirdi, terroru İslam dini ilə əlaqələndirməyin səhv olduğunu, harada müsəlman varsa, terrorçu axtarmağın dövlətlərə və xalqlararası münasibətlərə ziyan vurduğunu xüsusi vurğuladı: "Bəzi ölkələr islamofobiyanı dövlət siyasəti səviyyəsinə qaldırıblar. Belə yanaşma tamamilə yanlışdır. Çünki İslam sülh, birgəyaşayış dinidir. İslamı terrorla eyniləşdirmək konkret məqsədlər üçün edilir. Azərbaycan isə dinlərarası, mədəniyyətlərarası dialoq baxımından bir model ölkə halına gəlib. Dünyanın Azərbaycandan öyrənəcəyi çox şey var".

Milli Məclisin deputatı **Asim Mollazadə** də həmkarları ilə həmrəydir. O deyir ki, Azərbaycan Türkiyə ilə qardaş ölkədir və bu qardaşlığımızı heç kim sarsıda bilməz. Azərbaycan və Türkiyə terrora qarşı mübarizə aparır: "Bölgədə ən pozitiv, hamının marağına uyğun olan iqtisadi, siyasi, nəqliyyatla bağlı bütün layihələr Azərbaycan və Türkiyə ilə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə səfərinin əsas mahiyyəti Türkiyənin çətin günündə yanında olmaq və iki ölkə arasında münasibəti gözəl formada ifadə etməkdən ibarət idi. İki ölkə arasında münasibətlərdə "bir millət, iki dövlət" formulu bu dəfə də özünü göstərdi".

Deputatın fikrincə, Ankarada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında imzalanan sənədlər böyük əhəmiyyətə malikdir: "Lakin düşünürəm ki, qardaşlıq və iki ölkənin birgə baxışlara malik olmasını dünyaya nümayiş etdirmək sənədlərdən də önəmli idi. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfərini yüksək qiymətləndirirəm".

Deyilən fikirlər də bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri iki ölkə arasında əlaqələri qardaşlığın və qarşılıqlı dəstəyin daha yüksək səviyyəsinə çıxardı. Başqa sözlə, Azərbaycan-Türkiyə dostluğu, strateji tərəfdaşlıq münasibətləri dünya ölkələrinə model, örnək ola bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

...ulmasından bir il keçir...

